**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 9/14**

**Bakı şəhəri** **30 aprel 2025-ci il**

**"Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstərişin təsdiq edilməsi və "Malların istehsalı, təqdim edilməsi, obyektlərin tikintisi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2014-cü il 12 may tarixli 19/14 nömrəli qərarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. "Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı forması təsdiq edilsin (əlavə 1).

2. "Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş" təsdiq edilsin (əlavə 2).

3. "Malların istehsalı, təqdim edilməsi, obyektlərin tikintisi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı forması və onun doldurulmasına dair göstəriş haqqında" Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2014-cü il 12 may tarixli 19/14 nömrəli qərarının 1-ci hissəsi ləğv edilsin.

4. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

5. Qərarın Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildikdən sonra 72 saat müddətində rəsmi dərc edilməsi üçün zəruri tədbirlər görülsün.

6. Aparatın Sənaye və tikinti statistikası şöbəsinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsin.

7. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə edilsin.

**Sədr** **Tahir Budaqov**

**Əlavə 1**
Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il 30 aprel tarixli 9/14 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**1-istehsal (tikinti) №-li forma**
**İllik**

# R Ə S M İ S T A T İ S T İ K A H E S A B A T I

## Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında

“Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hesabat forması üzrə məlumatların konfidensiallığına zəmanət verilir və onlardan yalnız ümumiləşdirilmiş şəkildə istifadə ediləcəkdir

**Hesabat təqdim edən statistik vahidin:**
**adı** ______________________________________
**inzibati ərazi vahidinin və yaşayış məntəqəsinin adı göstərilməklə dəqiq ünvanı**
__________________________________________
__________________________________________

| **Hesabat formasının kodu** | **Statistik vahidin identifikasiya (statistik) kodu** | **VÖEN** |
|---|---|---|
| **03106026** | | |

Hesabat əsas fəaliyyəti tikinti olan hüquqi şəxslər (onların filial və nümayəndəlikləri) tərəfindən mart ayının 15-dək elektron formada Dövlət Statistika Komitəsinin internet səhifəsində (www.stat.gov.az) real vaxt rejimində təqdim edilir.

Hesabat formasına və onun doldurulmasına dair rəy və təkliflərinizi Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinə göndərə bilərsiniz. Elektron poçt ünvanı: hesabat@stat.gov.az

**20___ il üzrə**

### I bölmə. Ümumi iqtisadi göstəricilər, faktiki qiymətlərlə

**(min manat, onda bir dəqiqliklə)**

| Göstəricinin adı | Sətrin kodu | Hesabat ilində |
|---|---|---|
| A | B | 1 |

| | | |
|---|---|---|
| Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsindən gəlirlər (qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla, ƏDV, aksiz vergisi çıxılmaqla) - cəmi | 1 | |
| 1-ci sətirdən: müəssisənin öz gücü ilə yerinə yetirdiyi tikinti fəaliyyətindən | 1.1 | |
| o cümlədən: inşa, yenidənqurma və bərpa işlərindən | 1.1.1 | |
| əsaslı təmir işlərindən | 1.1.2 | |
| cari təmir işlərindən | 1.1.3 | |
| sair tikinti işlərindən | 1.1.4 | |
| Malların ixracı | 2 | |
| Malların idxalı | 3 | |
| Xidmətlərin ixracı | 4 | |
| Xidmətlərin idxalı | 5 | |

**II bölmə. Tikinti müəssisəsinin öz gücü ilə yerinə yetirdiyi işlərin bina və qurğuların funksional təyinatı üzrə bölgüsü**

**(min manat, onda bir dəqiqliklə)**

| Bina və qurğuların[1] | | Hesabat ilində |
|---|---|---|
| adı | kodu | |
| A | B | 1 |
| | | |
| | | |
| | | |

**III bölmə. Hüquqi şəxslərin başqa ərazidə yerləşən və bilavasitə hesabat təqdim edə bilməyən yerli vahidləri (filialları, nümayəndəlikləri və s.) üzrə məlumatı (bu bölmə hüquqi şəxslər tərəfindən doldurulur, əgər yerli vahid hesabatı özü təqdim edirsə, həmin yerli vahid üzrə bu bölmə doldurulmur)**

**(min manat, onda bir dəqiqliklə)**

| Yerli vahidin (filialın, nümayəndəliyin və s.) | | | Hesabat ilində | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| statistik kodu (statistika orqanları tərəfindən verilmiş kod) | adı | yerləşdiyi ərazi[2)] | Malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsindən gəlirlər (qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla, ƏDV və aksiz vergisi çıxılmaqla) | 1-ci sütundan müəssisənin öz gücü ilə yerinə yetirdiyi tikinti fəaliyyətindən | o cümlədən | | | |
| | | | | | inşa, yenidənqurma və bərpa işlərindən | əsaslı təmir işlərindən | cari təmir işlərindən | sair tikinti işlərindən |
| A | B | C | 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | | | | | | | | |
| | | | | | | | | |
| | | | | | | | | |

[1)] Bina və qurğuların funksional təyinat üzrə statistik təsnifatı üzrə.
[2)] "İnzibati Ərazi Bölgüsü Təsnifatı, 2024" üzrə.

Hesabatın tərtib olunmasına sərf edilən vaxt * ___________________ (adam-saat)

* Rəsmi statistika hesabatlarının tərtib olunmasına sərf olunan vaxt adam-saatla ölçülür və hesabatın tərtib olunmasında iştirak edən işçilərin (işçinin) sayı onların (onun) həmin hesabatın tərtib olunmasına sərf etdikləri (etdiyi) vaxta vurulmaqla müəyyənləşdirilir.

_______________________________________________ İcraçının vəzifəsi, adı, soyadı, tel. nömrəsi

_______________________________ Rəhbərin adı, soyadı, imzası

“___” ____________ 20___ il

**Əlavə 2**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2025-ci il 30 aprel tarixli 9/14 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**"Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair**

# GÖSTƏRİŞ

## 1. Ümumi müddəalar

"Malların istehsalı, təqdim edilməsi və xidmətlərin göstərilməsi haqqında" 1-istehsal (tikinti) №-li illik rəsmi statistika hesabatı forması əsas fəaliyyəti tikinti olan hüquqi şəxslər (onların filialları və nümayəndəlikləri) tərəfindən təqdim edilir.

## 2. Hesabat formasında istifadə edilən əsas anlayışlar

**2.1. Malların təqdim edilməsi** - mallar üzərində mülkiyyət hüququnun başqasına verilməsi, habelə bunlarla məhdudlaşdırılmayan, malların satışı, mübadiləsi, hədiyyə verilməsi, natura şəklində əməkhaqqı ödənilməsi və natura şəklində digər ödəmələr, həmçinin girov qoyulmuş mallar üzrə mülkiyyət hüququnun girov saxlayana və ya digər şəxsə keçməsi, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin notarial qaydada təsdiq edilməklə, habelə notarial qaydada təsdiq edilmədən bağlanmış müqavilələr üzrə, həmçinin mənzil-tikinti kooperativi üzvlərinin ümumi yığıncağının qərarı ilə özgəninkiləşdirilməsi;

**2.2. Xidmət (iş)** - malların təqdim edilməsi sayılmayan, nəticələri maddi ifadə kəsb edən fəaliyyət. Xidmətlərin göstərilməsi (işlərin görülməsi) zamanı istifadə olunan mallar ayrıca təqdim edilmirsə və ya xidmətin (işin) dəyərinə daxil edilməyən kompensasiyalı xərclər müqavilədə və ya ödəniş sənədlərində ayrıca göstərilmirsə, həmin mallar və ya xərclər xidmətin (işin) ayrılmaz tərkib hissəsi hesab edilir;

**2.3. Tikinti fəaliyyəti** - tikinti obyektlərinin tikintisi (inşası, cari və əsaslı təmiri, yenidən qurulması, bərpası) və ya sökülməsi məqsədilə həyata keçirilən fəaliyyət;

**2.4. Tikinti obyektinin yenidən qurulması (rekonstruksiyası)** - obyektin mövcud təyinatının dəyişdirilməsi və ya istismar keyfiyyətinin müasirləşdirilməsi məqsədilə müvafiq layihə əsasında yeni texnologiyaların tətbiqi, yaxud yeni bina və ya qurğuların inşası, o cümlədən mühəndis-kommunikasiya təminatı xətlərinin quraşdırılması ilə bağlı tikinti-quraşdırma və buraxılış-sazlama işlərinin yerinə yetirilməsi;

**2.5. Tikinti obyektinin bərpası** - istismara yararsız vəziyyətə düşmüş obyektin müvafiq layihə əsasında tikinti-quraşdırma işləri yerinə yetirilməklə ilkin vəziyyətə qaytarılması;

**2.6. Tikinti obyektinin əsaslı təmiri** - obyektin istismar müddətini uzatmaq və (və ya) istismar keyfiyyətini yaxşılaşdırmaq məqsədilə müvafiq layihə əsasında yükdaşımayan konstruksiyaların, mühəndis-kommunikasiya təminatı sisteminin və xətlərinin dəyişdirilməsi və (və ya) bərpası, eləcə də zəruri hallarda yükdaşıyan konstruksiyaların müəyyən elementlərinin uyğunları ilə əvəzlənməsi və (və ya) bərpası işlərinin yerinə yetirilməsi;

**2.7. Tikinti obyektinin cari təmiri** - obyektin istismar keyfiyyətinin saxlanılması məqsədilə konstruksiyalarda, mühəndis-kommunikasiya təminatı sistemində və ya xətlərində dəyişikliklər edilmədən vaxtaşırı təmir-tikinti işlərinin yerinə yetirilməsi.

**2.8. Malların və xidmətlərin ixracı** - hesabat dövrü ərzində ölkə rezidentləri tərəfindən ixrac edilmiş malların və qeyri-rezidentlərə göstərilmiş xidmətlərin dəyəridir.

**2.9. Malların və xidmətlərin idxalı** - hesabat dövrü ərzində ölkə rezidentləri tərəfindən idxal edilmiş malların və qeyri-rezidentlər tərəfindən onlara göstərilmiş xidmətlərin dəyəridir.

## 3. I bölmə. Ümumi iqtisadi göstəricilər

3.1. Bu bölmənin 1-ci sətrində tikinti müəssisələri tərəfindən malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsindən gəlirlərin (qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla, ƏDV, aksiz vergisi çıxılmaqla) cəmi göstərilir.

3.2. 1.1-ci sətirdə müəssisənin öz gücü ilə yerinə yetirdiyi tikinti fəaliyyətindən gəlirlər göstərilir.

3.3. 1.1.1-ci sətirdə 1.1-ci sətirdən inşa, yenidənqurma və bərpa işlərindən gəlirlər göstərilir.

3.4. 1.1.2-ci sətirdə 1.1-ci sətirdən əsaslı təmir işlərindən gəlirlər göstərilir.

3.5. 1.1.3-cü sətirdə 1.1-ci sətirdən cari təmir işlərindən gəlirlər göstərilir.

3.6. 1.1.4-cü sətirdə 1.1-ci sətirdən sair tikinti işlərindən gəlirlər göstərilir.

3.7. 2-ci sətirdə ixrac edilmiş malların dəyəri göstərilir.

3.8. 3-cü sətirdə idxal edilmiş malların dəyəri göstərilir.

3.9. 4-cü sətirdə ixrac edilmiş xidmətlərin dəyəri göstərilir.

3.10. 5-ci sətirdə idxal edilmiş xidmətlərin dəyəri göstərilir.

## 4. II bölmə. Tikinti müəssisəsinin öz gücü ilə yerinə yetirdiyi işlərin bina və qurğuların funksional təyinatı üzrə bölgüsü

Bu bölmənin "A" sütununda bina və qurğuların adı, "B" sütununda bina və qurğuların kodu (ad və kodlar "Bina və qurğuların funksional təyinat üzrə statistik təsnifatı"na uyğun olaraq qeyd olunur), 1-ci sütunda isə bina və qurğuların hesabat ilində dəyəri qeyd edilir.

## 5. III bölmə. Hüquqi şəxslərin başqa ərazidə yerləşən və bilavasitə hesabat təqdim edə bilməyən yerli vahidləri (filialları, nümayəndəlikləri və s.) üzrə məlumatı

5.1. Bu bölmə başqa inzibati ərazi vahidlərində yerləşən və bilavasitə hesabat təqdim edə bilməyən yerli vahidləri (filialları, nümayəndəlikləri və s.) olan tikinti müəssisələri (hüquqi şəxslər) tərəfindən doldurulur. Əgər yerli vahid (filial, nümayəndəlik və s.) hesabatı özü təqdim edirsə, həmin yerli vahid (filial, nümayəndəlik və s.) üzrə bu bölmə doldurulmur.

5.2. "A" sütununda yerli vahidin (filial, nümayəndəlik və s.) statistik kodu, "B" sütununda adı, "C" sütununda yerləşdiyi ərazi qeyd edilir.

5.3. 1-ci sütunda yerli vahid (filial, nümayəndəlik və s.) tərəfindən malların satışı, işlərin görülməsi və xidmətlərin göstərilməsindən gəlirlərin (qaytarılan mallar və ticarət güzəştləri nəzərə alınmaqla, ƏDV, aksiz vergisi çıxılmaqla) cəmi göstərilir.

5.4. 2-ci sütunda 1-ci sütundan müəssisənin öz gücü ilə yerinə yetirdiyi tikinti fəaliyyətindən gəlirlər göstərilir.

5.5. 3-cü sütunda 2-ci sütundan inşa, yenidənqurma və bərpa işlərindən gəlirlər göstərilir.

5.6. 4-cü sütunda 2-ci sütundan əsaslı təmir işlərindən gəlirlər göstərilir.

5.7. 5-ci sütunda 2-ci sütundan cari təmir işlərindən gəlirlər göstərilir.

5.8. 6-cı sütunda 2-ci sütundan sair tikinti işlərindən gəlirlər göstərilir.